# Aİ Cənubi Qafqazda sülhün yaranmasına kömək edəcək

Nəzərə alsaq ki, Avropa İttifaqı "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində Cənubi Qafqaz üçün yeni əməkdaşlıq imkanlarının yaradılmasında maraqlıdır, bu da o deməkdir ki, yaxın gələcəkdə Azərbaycanla Aİ arasında əlaqələr daha da güclənəcək. Bu fikirləri həmsöhbətimiz olan Xalq artisti, professor Ağaverdi Paşayev bildirdi. Professor dedi:

– Ümumiyyətlə, ittifaqla Azərbaycan arasında əlaqələr daim iki tərəf üçün də prioritetlərdən biri olmuşdur. Ölkəmizlə Aİ arasında olan əməkdaşlıq bütövlükdə Cənubi Qafqazın gələcəyi üçün çox mühüm əhəmiyyət kəsb edir. Təbii ki, bundan sonrakı münasibətlərin formalaşmasında Azərbaycanın II Qarabağ müharibəsində qazandığı zəfər də mühüm önəm daşıyacaq. Bu barədə xarici ekspertlər də vaxtaşırı fikirlərini bildirir, Azərbaycanın bölgədə yaratdığı yeni reallıqların həm Avropa İttifaqı ilə ölkəmiz arasındakı əlaqələrin, həm də ümumiyyətlə, regionun gələcəyi ilə bağlı proqnozlar verirlər.

Yeri gəlmişkən, oktyabrın 6-da Prezident İlham Əliyev Avropa İttifaqının ölkəmizə yeni təyin olunmuş səlahiyyətli səfiri Petr Mixalkonun etimadnaməsini qəbul etdi. Petr Mixalko qəbul zamanı qeyd etdi ki, Avropa İttifaqı Azərbaycanla qarşılıqlı əlaqələrin gücləndirilməsində maraqlıdır. Bu mənada yeni sahələr üzrə əməkdaşlıq layihələri hazırlanır və yaxın gələcəkdə həmin proqramlar müzakirə ediləcək. Yeni səfir bildirdi ki, iqtisadiyyat, enerji, investisiyalar, infrasturktur və qarşılıqlı əməkdaşlıq kimi mühüm sahələr üzrə Azərbaycanla birlikdə işləməyə hazırdırlar. Əlbəttə, bütün bunlar iki tərəf arasında əlaqələri gücləndirməklə yanaşı, həm də Azərbaycan iqtisadiyyatının inkişafını daha da sürətləndirəcək.

Cənab Mixalkonun qəbulu zamanı müzakirə olunan ən önəmli məsələlərdən biri də Ermənistanla bundan sonrakı əlaqələrin tənzimlənməsi istiqamətində Avropa İttifaqının fəal iştirakı ilə bağlı təklif oldu. Bu da ondan xəbər verir ki, Aİ də eynən Azərbaycan kimi Cənubi Qafqazda siyasi sabitliyin yaranmasının tərəfdarıdır. Məlum məsələdir ki, əgər davamlı sülhün təmin edilməsi, iki ölkə arasında qonşuluq əlaqələrinin qismən də olsa bərpa olunması üçün Avropa İttifaqı nizamlayıcı rol oynamaq istəyirsə, burada Azərbaycanla birlikdə Ermənistanın da razılığı olmalıdır. Lakin hər halda ilkin versiya olaraq bu təklifin verilməsi sevindirici xəbərdir. Hadisələrin gedişatını əsasən Ermənistanın bundan sonrakı davranışı müəyyən edəcək.

Səfirin etimadnaməsini qəbul edərkən Prezident İlham Əliyev də bu təşəbbüsü yüksək qiymətləndirdi və bildirdi ki, Azərbaycan və Aİ-nin regional inkişaf, postmüharibə dövründə yaranmış yeni perspektivlərlə bağlı düşüncələri tamamilə üst-üstə düşür. Bu isə öz növbəsində inkişaf və qarşılıqlı əlaqələrin gücləndirilməsi prosesinin sürətlənməsinə müsbət töhfə verəcək.

Ümid edirik ki, Ermənistan tərəfi bu zamana qədər onlara təklif edilən, qaçırdıqları fürsətləri düzgün dəyərləndirər və keçmişdə etdiyi xətalardan dərs çıxarar. Çünki regionda sülhün qorunması, sabitliyin təmin edilməsi təkcə bizim üçün deyil, bütün Cənubi Qafqaz üçün yeni imkanlar deməkdir.



***Avropa İttifaqı (Aİ) ilə əlaqələrin genişləndirilməsi Azərbaycan üçün xarici siyasət məsələlərinin ən önəmli istiqamətlərindən biridir. Bu əlaqələr Azərbaycanın müstəqllik qazanmasından sonra başlamış və daim yüksələn tempdə davam etmişdir. Əlbəttə, Avropa İttifaqı üçün də Azərbaycanla iqtisadi və siyasi əlaqələrin gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki Azərbaycan Aİ üçün önəmli ticarət tərəfdaşıdır. Vətən müharibəsində qazanılan zəfərdən sonra qurumun Azərbaycana olan marağı daha da artmışdır. Heç kəs üçün sirr deyil ki, Azərbaycan regionun lider dövlətidir. Bu səbəbdən Cənubi Qafqazda yeni layihələrin həyata keçirilməsində Azərbaycanın xüsusi rolu var.***

***Söhbəti qələmə aldı:***
***İmran ƏLİYEV, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.- 8 oktyabr.- S.5.